**AZƏRBAYCAN FİLOSOFU NİZAMİ MƏMMƏDOVUN EKOLOJİ KONSEPSİYASI**

**Adil Əsədov**

*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu, Bakı*
*adil_asadov@mail.ru*

1968-ci ildə Stokholmda UNESCO xətti ilə beynəlxalq səviyyəli bir konfrans keçirildi. Konfrans həmin vaxta qədər adi və az əhəmiyyətli görünən bir problemə – ətraf mühitin çirklənməsi probleminə həsr edilmişdi. Lakin bu konfrans son dərəcə inandırıcı dəlillərlə təsdiq etdi ki, ətraf mühit problemi nəinki adi və az əhəmiyyətli deyildir, hətta gələcəkdə bəşərin bütün inkişaf perspektivləri onun həlli formasından asılı olacaqdır. Konfrans dünya alimlərini yeni problem situasiyasına saldı, onları bəşərin taleyi haqqında bir daha düşünməyə məcbur etdi. Bu düşüncələr ekoloji problemin ciddiliyini və onun həllinin son dərəcə əhəmiyyətli olduğunu açıb göstərən tədqiqatlarla nəticələndi. Həmin tədqiqatların birində – sistem dinamikası sahəsində görkəmli mütəxəssis olan Denis Medouzun başçılığı ilə aparılan və 1972-ci ildə "Artımın hədləri" adı altında çap olunan məruzədə qeyd olunurdu ki, əgər bəşəriyyət özünün hazırkı tempi və təmayülləri ilə inkiçaf etməkdə davam edərsə, 75 ildən sonra bütün xammal ehtiyatları tükənəcək, ərzaq çatışmamazlığı fəlakətli forma alacaq, mühitin qlobal çirklənməsi Yer üzərində həyatın boğulmasını şərtləndirəcəkdir.

D.Medouzun gəldiyi nəticələr bütün planetdə kəskin rezonansa səbəb oldu. Bu rezonans özünü Azərbaycanda da göstərdi. Akademik Həsən Əliyevin "Həyəcan təbili"ndə (1976) Azərbaycanın geniş ekoloji mənzərəsi yaradıldı. Akademik Mustafa Topçubaşov özünün "Ətraf mühit və sağlamlıq" (1979) adlı kitabında Azərbaycan oxucusu qarşısında ekologiyanın tibbi aspektlərini canlandırdı.

Həmin illərin gənc alimi Nizami Məmmədov ekoloji ziddiyyətlərin mənalandırılması istiqamətində özünün ilk addımlarını atmağa başladı və bu addımlar son dərəcə uğurlu oldu, ekoloji problemin orijinal konsepsiyasının yaradılması ilə nəticələndi.

Nizami Məmmədov tərəfindən təklif olunan konsepsiyanın mahiyyəti nədədir? Burada müəllif özünün çıxış nöqtəsini ümumi sistem nəzəriyyəsi üzərində qurur: hər bir açıq sistem özündə müəyyən keyfiyyətli və müəyyən kəmiyyətdə maddəni, enerjini və informasiyanı daşıyır. Nizami Məmmədovun düşüncə axınını izlədikcə təxmin edirsən ki, burada sistem tərəfindən daşınan informasiya onun – sistemin fəaliyyət məntiqini ifadə edir. Maddə bu məntiqin gerçəkləşmə bazasının, enerji isə onun gerçəkləşmə prosesinin təcəssümüdür. Sistem – maddələrin, enerjilərin və informasiyaların həmin keyfiyyət və kəmiyyət ölçüləri daxilində stabildir. Sistemin maddələrində, enerjilərində və informasiyalarında keyfiyyət və kəmiyyət göstəriciləri daim dəyişir və bu dəyişmədə sistemin stabilliyi getdikcə pozulur və nəticədə, o, qeyri-stabil vəziyyət alır. Əgər sistemin məkan sərhədləri daxilindəki maddələr, enerjilər və informasiyalar onun fəaliyyət məntiqinin tələb etdiyi keyfiyyətdə deyildirsə və həmçinin, həmin məntiqdən doğan kəmiyyəti üstələyirsə, sistem "çirklənmişdir". Əgər açıq sistemin sərhədləri daxilindəki maddələr, enerjilər və informasiyalar həmin sistemin fəaliyyət məntiqinə uyğun keyfiyyətlərə malik deyildirsə və bu məntiqə uyğun kəmiyyətlərin səviyyəsinə çatmırlarsa, sistemin "ehtiyatları tükənmişdir". Müəllif ümumən belə bir əsasda bütün ekoloji ziddiyyətləri vahid ekoloji problemin təzahürləri kimi təqdim edir və onun iki aspektini – "çirklənmə"ni və "ehtiyatların tükənməsi"ni qeyd edir. Uyğun olaraq, hər bir aspekt üç formanın təsvirini özündə birləşdirir. Ekoloji problemin birinci aspekti aşağıdakı üç formanı ifadə edir: açıq sistemin maddələrlə çirklənməsi, enerji ilə çirklənməsi və informasiya ilə çirklənməsi. Maddələrlə çirklənmə zamanı sistem onun fəaliyyət məntiqi üçün zəruri olmayan və bir sıra hallarda isə bu məntiqin gerçəkləşdirilməsində müqavimət göstərən cisimlərlə yüklənir. Enerji ilə çirklənmədə sistem özündə özünə lazım olmayan artıq enerji "duyur" və bu artıq enerji sistemin öz daxili təbiətindən – fəaliyyət məntiqindən doğan istiqamətdə inkişafına və hərəkətinə mane olur. İnformasiya ilə çirklənmədə sistemin fəaliyyət məntiqinin özü – onun davranış prinsipləri – artıq informasiya yükünün altında pozulur. Ekoloji problemin ikinci aspekti isə uyğun olaraq, özündə aşağıdakıları birləşdirir: açıq sistemdə maddələrin tükənməsi, enerjinin tükənməsi və informasiyanın tükənməsi. Maddələrin tükənməsi zamanı sistemin fəaliyyət məntiqi, özünün gerçəkləşmə bazasının məhdudluğu üzündən öz maddi təcəssümünü bütövlükdə tapa bilmir. Enerjinin tükənməsi zamanı sistemin fəaliyyət məntiqi ilə bu məntiqin maddi gerçəkliyi arasındakı ziddiyyət enerjinin yoxluğu üzündən həll oluna bilmir. İnformasiyanın tükənməsi zamanı isə həmin məntiqin özü formalaşmamış qalır.

Özünün Bakıda, Moskvada, Madriddə, Parisdə, Nyu-Yorkda Azərbaycan, rus, ingilis, ispan, fransız dillərində nəşr olunmuş 300-dən artıq elmi əsərində, həmçinin 10-dan artıq monoqrafiyasında,

dərsliklərində Nizami Məmmədov ekoloji problemin hər iki aspektinin geniş elmi təsvirini verir. Burada həmçinin ekoloji ziddiyyətlərin səviyyələri göstərilir və ekoloji ziddiyyətləri uyğun səviyyələrdə öyrənən elmlər nəzərdən keçirilir, onların həlli yolları axtarılır və təklif olunur.

Nizami Məmmədov ekoloji problemin həllini elmi-texniki tərəqqinin insan tərəfindən idarə edilməsində görür və qeyd edir ki, elm insanın təbiətə göstərdiyi mənfi təsirləri minimuma endirməklə, insanın həqiqi insani mövcudluğunu təmin etməlidir. Nizami Məmmədovda təbiətin praktik anlaşılmasından onun aristokratik anlaşılmasına doğru aparan yollar aşkar görünür. Belə ki, insanın həqiqi insani mövcudluğu təbiətin istismarı, hətta təbiətdən səmərəli istifadə etmək tələbi ilə bir araya sığmır. İnsan biosfer adlı qlobal orqanizmin beyin olmaq missiyasını öz qüdrətli çiyinləri üzərinə götürməli, onun təbii təkamülünü öz himayəsi altına alaraq, geoloji tarixin noosfer erasına başlanğıc verməlidir. İnsan ancaq bununla təbiətə və özünə insani münasibət bəsləmiş olar.